*"1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının I katibi seçilməsi, xüsusilə də onun fəaliyyəti Sovet İttifaqında böyük əks-sədaya səbəb oldu. O, ilk növbədə neqativ hadisələrə - rüşvətə, korrupsiyaya və digər cinayətlərə qarşı mübarizəyə başlaması ilə tanındı. Hamının öz vəziyyətindən çox razı olduğu və əlavə heç bir problem yaratmaq istəmədiyi bir vaxtda, dondurulmuş bir əhatədə onun bu cür fəaliyyətə başlaması böyük partlayış idi. H.Əliyevin fəaliyyəti, hay-küylü məhkəmə prosesləri, onun açıq çıxışları bir çoxlarını dəhşətə gətirdi. Amma əhali bütün bunları alqışlayırdı".*

**Eduard ŞEVARDNADZE**



# Heydər Əliyev və Gürcüstan

Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu istər birinci dövrdə, istərsə də ikinci dövrdə qonşu Gürcüstan dövləti ilə əlaqələrin inkişafına və orada yaşayan soydaşlarımızın qayğılarına xüsusi diqqət göstərirdi Ulu öndərin respublikamıza rəhbərliyinin birinci dövrü - 1969-1982-ci illər mənim gənclik və tələbəlik illərimə düşsə də, yaxşı xatırlayıram, böyük şəxsiyyətin ictimai-siyasi fəaliyyətini həvəslə izləmişəm, maraq göstərmişəm. 1970-ci ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyərkən neqativ hallara - korrupsiyaya və digər cinayətkar əməllərə qarşı mübarizəyə başlaması xalq arasında böyük razılığa səbəb oldu.

O zamankı sovet rejimində görünməmiş bir hal kimi Heydər Əliyevin bu cür fəaliyyətə başlaması nəinki Azərbaycanda, Sovetlər birliyində qeyri-adi hadisə sayılırdı. Tale elə gətirib ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövrdə atam Əli Aslanov rayon icraiyyə komitəsinin sədri vəzifəsində işləyib, ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra isə mən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı işləmişəm. Rəhbərin Gürcüstan və gürcüstanlı soydaşlarımızla bağlı tapşırıqlarının icrasının birbaşa iştirakçısı olmuşam.

Heydər Əliyev Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafına və möhkəmləndirilməsinə, orada yaşayan soydaşlarımızın problemlərinin həllinə, Gürcüstan ərazisində yerləşən milli abidələrimizin, maddi-mənəvi dəyərlərimizin, bir sözlə, tarixi yaddaşın qorunub saxlanılmasına xüsusi önəm verirdi. Xoşbəxtəm ki, 1993-cü ildən 2003-cü ilə kimi ulu öndərin rəhbərliyi altında Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı işləyərkən bu qəbildən olan tapşırıqların icraçısı və iştirakçısı olmuşam.

1993-cü ildə Gürcüstanın özündə də ictimai-siyasi hadisələr gündə bir hava üstündə köklənirdi.

Soydaşlarımızın narahatlığına səbəb var idi. Bu narahatlığa, bu haqsızlıqlara ilk əvvəl Heydər Əliyev reaksiya verdi və zəng edərək tapşırdı ki, şəmkirli ziyalılarla soydaşlarımıza baş çəkim, problemləri ilə maraqlanım. Üstəlik xalqımızın tanınmış şəxsiyyətlərindən olan Nəriman Nərimanov və Mirzə Cəlilin Tbilisidəki ev-muzeylərinin himayəyə götürülməsi barədə xüsusi tapşırıq da verdi. Qardabanidə soydaşlarımızla görüşümüz, Nəriman Nərimanov və Mirzə Cəlilin vaxtilə yaşadıqları ünvanlarla əlaqədar axtarışlarımız yaxşı nəticə verdi. Az sonra sovet hökuməti dönəmində evlərə sahib olmuş ermənilərdən həmin mülklər alınaraq özəlləşdirildi, yüksək səviyyədə təmir aparıldı, eksponatlar və lazımi avadanlıqla təmin edildi.

Heydər Əliyevin göstərişinə əsasən Gürcüstana hər səfərimiz bir tarixi yeniliklə yadda qalırdı. Ulu öndərin tapşırıqları ilə əlaqədar Gürcüstanda atılan hər bir addım, həyata keçirilən tədbirlər milli mədəniyyətimizin inkişafına və tərəqqisinə, tarixi irsimizə yenidən həyat verilməsinə istiqamətləndirilmişdi. Bu, Azərbaycan tarixinin elə bir mürəkkəb dövrü idi ki, Dağlıq Qarabağ və onun ətraf əraziləri sovet imperiyasının qəyyumluğu ilə silahlı birləşmələri tərəfindən, daxildən isə xalqın adından orda-burda danışaraq kreslo davasına çıxan ekstremist qüvvələrin çirkin əməlləri hesabına ölkə iflic vəziyyətə salınmışdı.

Erməni daşnaklarının təzyiqindən, terrorundan qorxuya düşən soydaşlarımızın Gürcüstandan Azərbaycana axını, köçhaköçü başlanmışdı. Erməni əsilli gürcülər quldur və işğalçı ermənilərlə, gürcülərin Xüsusi Təyinatlı Polis dəstəsinin başçısı Mixidironla əlbir olaraq orada yaşayan soydaşlarımıza qarşı təzyiq, təhqir, şantaj, oğurluq, quldurluq kampaniyası həyata keçirirdilər. Gürcüstanın xüsusilə azərbaycanlılar yaşayan sərhəd kəndlərində məqsədli şəkildə milli mənliyimiz təhqir olunurdu. Vandalistlər istəyirdilər ki, azərbaycanlı ailələrini yurd-yuvalarından perik salmaqla həmin əraziləri işğal etsinlər, Dağlıq Qarabağdan gələn məcburi köçkünlər probleminə Gürcüstandan qaçanlar da əlavə olunsun ki, respublikamızda gərginlik daha da artsın.

Açıq etiraf etməliyik ki, bu dalğanın qarşısını o zaman yalnız və yalnız Heydər Əliyev müdrikliyi, Gürcüstanın o vaxtkı prezidenti E.Şevardnadze ilə olan dostluq münasibətləri aldı. Bu münasibətlərə kölgə salmaq istəyən Ermənistan silahlı qüvvələri Gürcüstanda yaşayan erməni və erməni əsilli gürcülərlə əlaqəyə girərək pərdəarxası işğalçılıq əməllərini həyata keçirə bilmədilər. Həmin anları xatırlayanda Heydər Əliyevin yaxın dostu, tanınmış dövlət xadimi Edurad Şevardnadzenin sözləri yada düşür: "Heydər Əliyevin fırtınalı həyat yolu, ən çətin, ən həlledici məqamlarda atdığı qətiyyətli addımlar onun mövqeyinə və vətən qarşısında üzüağ olduğuna əyani sübutdur".

Soydaşlarımızın son həddə çatan narahatlığına Azərbaycandan ilkin reaksiya verən ölkə başçısı Heydər Əliyev oldu. Belə bir gərgin məqamda Azərbaycan prezidentinin uzaqgörənliyi ilə yarım milyondan çox azərbaycanlı soydaşımız yaşayan Gürcüstanda milli ideologiyamızın işlək bazasını hərəkətə gətirmək üçün Şəmkir rayonu Azərbaycan ilə Gürcüstan Respublikası arasında dostluq körpüsünə çevrildi. Humanitar yardım yüklü maşın karvanı ilə əvvəlcə Ermənistanla sərhəddə olan, gürcü və azərbaycanlıların birgə yaşadıqları Dimanisi rayonunda olduq. Aparılan yardım soydaşlarımıza və qapıbir qonşuları gürcülərə paylandı. Bundan sonra yerli gürcülər hiss etdilər ki, ölkəmiz, Azərbaycan xalqı, xüsusilə Heydər Əliyev onların problemləri ilə daim maraqlanır və hər zaman kömək göstərməyə hazırdır. Beləliklə, əsrlərdən bəri mehriban qonşuluq şəraitində yaşamış xalqlarımız arasında dostluğun yeni mərhələsi başlandı. Gürcüstan dövlətinin yerlərdəki rəsmi nümayəndələri və soydaşlarımız arasında ünsiyyət aydan-aya gücləndi, müntəzəm görüşlər, həyata keçirilən milli tədbirlər ənənəyə çevrildi. 1996-cı ilin mart ayında Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstan Respublikasına ilk rəsmi səfəri ilə əlaqələrimizin daha da möhkəmlənməsinə və genişlənməsinə yeni yollar açdı.

Gürcüstan-Azərbaycan dostluğunun tarixinə yeni səhifələr yazıldı, xeyriyyəçilik ənənələri vüsət aldı. Qardabanidə köhnə, uçulub-dağılmaqda olan məscid binası təcili bərpa olundu. Az sonra Heydər Əliyevin tapşırığı ilə qonşu Marneulidə (qədim Sarvanda) yeni məscid tikilib istifadəyə verildi. Azərbaycan məktəblərinə yardım edilməsi, Abxaziyadan qaçqın düşmüş gürcülərin problemlərinə köməkliklər də bu tədbirlərə əlavə olundu. Aşıq məclisləri, incəsənət ustaları ilə görüşlər, yazıçı və şairlərin yubiley tədbirləri, digər bu qəbildən olan yığıncaqlar kütləvi xarakter aldı. Günün tələbləri baxımından yaradılan və inkişaf etdirilən əlaqələr, ardıcıl görüşlər, şənbə və bazar günləri keçirilən mədəni-kütləvi



tədbirlər ənənəyə çevrildi.

Ulu öndərin göstərişi ilə 1995-ci ildən başlayaraq Tbilisidəki səfalı Nəbatat bağında 200 kv.m.-dən çox ərazi abadlaşdırıldı. Azərbaycanın dahi şəxsiyyətlərinin əbədiyyətə qovuşduğu bu müqəddəs yer əsl ziyarətgaha çevrildi. Hələ sovetlər dönəmində - Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci ildə böyük mütəfəkkir Mirzə Fətəli Axundovun qoyulmuş büstü bərpa edildi, unudulmaz şairimiz Mirzə Şəfi Vazehin məzarı abadlaşdırılaraq qəbirüstü abidəsi yaradıldı. 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən olan Fətəli xan Xoyskinin dağılmış, itib-batmaqda olan məzarı tapılıb, qəbirüstü götürüldü, büstü ucaldıldı.

Eləcə də görkəmli ziyalı Həsən bəy Ağayevin axirət evi əsaslı şəkildə abadlaşdırıldı. Qədim müsəlman qəbristanlığında Tiflis ədəbi mühitindən çıxmış, ötən əsrin əvvəllərində müstəqil Azərbaycan dövlətçiliyi uğrunda mübarizə aparmış insanların, tanınmış elm, mədəniyyət nümayəndələrinin, ictimai-siyasi xadimlərin adları həkk olunmuş Pantion yaradıldı. Burada iri mərmər lövhədə ümummilli liderin tapşırığı ilə "Azərbaycan övladları" yazılmış, dövrünün adlı-sanlı ziyalıları, şəxsiyyətləri kimi tanınan azərbaycanlılardan 26 nəfərin nəşi dəfn edilmişdir. Bu minvalla, ötən əsrin əvvəllərində Tiflis mühitində yaşayıb-yaratmış və bu qəbristanlıqda əbədiyyətə qovuşmuş insanların baxımsızlıq ucbatından itib-batmaqda olan neçə-neçə məzarı aşkar olunmuş, ətrafında abadlıq işləri görülərək müxtəlif ağaclar və gül kolları əkilmiş, həmin ərazinin yolu abadlaşdırılmışdır.

Tarixə çevrilən və ən yaddaqalan məqamlardan biri də Mirzə Fətəli Axundovun evinin Heydər Əliyevin tapşırığı ilə geri alınması və bundan sonra ev-muzeyinə və mədəniyyət mərkəzinə çevrilməsidir. Yaxşı xatırlayıram, 1996-cı ilin soyuq qış günlərindən birində biz bu işi başa çatdırdıq. Şəmkirə qayıtmağa hazırlaşırdıq, bildirdilər ki, yaşlı bir qadın mənimlə görüşmək istəyir.

Yaşı səksəni haqlamış bu qadınla söhbət zamanı məlum oldu ki, bu ağsaçlı müəllimə böyük bir sirrin üstünü açmaq istəyir. Bu sirr xalqımız üçün mühüm əhəmiyyətə malik oldu. Yaşlı müəllimə illər boyu heç kimə aça bilmədiyi bu sirri - Fətəli xan Xoyskinin dəfn edildiyi yerin harada olduğunu açıqladı və dedi: "O zamanlar Fətəli xan Xoyskini allahsız adam kimi Şeyx Sənan dağının ətəyindəki qəbristanlıqda, mənim qardaşımın yanında basdırdılar". Sonra qadın gedib həmin yeri bizə göstərdi. O, əgər "buradakı ermənilər bilsələr, F.Xoyskinin qəbrini dağıdarlar, bu məsələni cənab Heydər Əliyevin bilməsi çox vacibdir" - deyə tapıntı barədə ölkə başçısına məlumat verməyimi dönə-dönə xahiş etdi.

Həmin gün axşam Şəmkirə qayıtdım və Heydər Əliyevlə əlaqə saxlayıb Gürcüstanla bağlı tapşırıqların icrası ilə əlaqədar ətraflı məlumat verdim, sonda cənab Prezidentə yaşlı müəllimənin dediklərini də çatdırdım.

Heydər Əliyev dedi: "Bu məsələdən səndən başqa daha kimin xəbəri var?".

Cavab verdim ki, məndən başqa sürücümün və daha iki nəfərin.

- Heydər Əliyev soruşdu:

Yorulmamısan?

Dedim:

- Xeyr.

Heydər Əliyev dedi:

- Elə isə geri qayıdıb, orada keşik çəkin. Səhər isə Tbilisi Cümə məscidinin axundunu götürüb, müsəlman adət-ənənəsi və deputatlarımızın iştirakı ilə Xoyskinin qəbrinin M.F.Axundovun büstünün yanına köçürülməsini təmin edin. Xoyskiyə xüsusi məhəbbətim olduğu üçün qəbirüstü abidənin açılışında özüm iştirak edəcəm!

Heydər Əliyev dediyi kimi də etdik. Büstün açılış mərasimində onunla birlikdə hətta Gürcüstan prezidenti Eduard Şevardnadze və digər dövlət rəsmiləri də iştirak etdilər.

Ölkə başçısı Heydər Əliyev Tbilisi görüşlərində bir sıra problemlərlə yanaşı, nəşri dayanmış Azərbaycan dilli "Gürcüstan" qəzetinin fəaliyyətinin bərpa olunmasının vacibliyini də gündəmə gətirdi. Bundan sonra redaksiya qəzet kağızı və kompüter dəsti ilə təmin edildi, mətbəə-maliyyə xərcləri yoluna qoyuldu, hətta atamdan qalma minik avtomobilini redaksiyaya bağışladım. Tez bir zamanda Gürcüstan ellərində Azərbaycan dilli, "Gürcüstan" qəzeti yenidən fəaliyyətə başladı.

Heydər Əliyevin Tbilisiyə səfərindən sonra ulu öndərin tapşırığına əsasən qısa müddət ərzində Gürcüstan-Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində qədim Azərbaycan teatrının varisi kimi, əməkdar mədəniyyət işçisi İftixar Piriyevin rəhbərliyi altında truppa yaradıldı. Bu işlər həm də gürcü və Azərbaycan ədəbiyyatının hər iki xalqa yenidən tanıdılması illəri kimi yadda qaldı.

Azərbaycanda hamı yaxşı bilir ki, Şərqin böyük

siyasətçilərindən hesab olunan yazıçı, həkim Nəriman Nəcəf oğlu Nərimanov Tiflisdə anadan olub. N.Nərimanovun doğulub boya-başa çatdığı binanı Kərbəlayi Allahverdi qədim müsəlman məhəlləsində oğlu Nəcəf üçün, yəni Nəriman Nərimanovun atası üçün tikdirib. Ötən əsrin əvvəllərində rus imperiyası Azərbaycanla yanaşı Gürcüstanı da işğal edəndən sonra, daha dəqiq desək, 1929-30-cu illərdə qorxudan hərə bir yana dağılıb, mülk əldən-ələ keçib. Ulu öndərin tapşırığı ilə Nəriman Nərimanovun ruhuna ehtiram əlaməti olaraq bu mülkdə yüksək səviyyədə yenidənqurma işləri aparıldı, lazımi eksponat və avadanlıqla təmin olundu.

İndi bütün dünya azərbaycanlıları fəxrlə, qürurla deyə bilərlər ki, tanınmış dövlət xadimi, yazıçı, doktor Nəriman Nərimanovun Tbilisidə də ev-muzeyi var. Milli mətbuat tarixindən bizə yaxşı məlum olan Cəlil Məmmədquluzadənin redaktorluğu ilə ərsəyə çatdırılan məşhur "Molla Nəsrəddin" jurnalının çap olunduğu "Qeyrət" mətbəəsi də burada yerləşir. 2001-ci ilin avqust ayının əvvəllərində daha bir tarixi şəxsiyyətin unudulmaqda olan ünvanı hamıya tanıdıldı: Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şair-pedaqoq Abdulla Şaiqin 120 illik yubileyi ərəfəsində Marneuli rayonunda, şairin ata-baba ocağında ev-muzeyinin və barelyefinin açılışı əsl toy-bayrama çevrildi. Muzeyin ünvanlandığı küçəyə Abdulla Şaiqin adı verildi.

Nəriman Nərimanov və Cəlil Məmmədquluzadənin ev-muzeylərinin Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin mülkiyyətinə verilməsi artıq ən yeni tarixə çevrilmişdir. Bu missiyada iştirak etdiyimə görə məmnunluq duyuram. Tariximizdən və taleyimizdən xəbər verən mülklərin, böyük şəxsiyyətlərin yaşayıb yaratdıqları ev-muzeylərinin ötən il Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin tabeliyinə keçirilməsi ilə bağlı müraciətimə müsbət münasibət göstərdiyinə görə möhtərəm prezident İlham Əliyevə minnətdaram.

Ümumiyyətlə, hansı ölkədə, hansı şəhərdə olursa-olsun, azərbaycanlı şəxsiyyətləri axtarıb aramaq, xatırlamaq, gənc nəslə tanıtmaq, insanların milli mənəviyyatlarını, tapdanmış hüquqlarını bərpa etmək, tarixin "repressiya" olunmuş fəsillərinə bəraət qazandırmaq, ilk növbədə müstəqil Azərbaycan dövlətinin keçmişi üçün böyük ehtiram, bu günü üçün şərəf və fəxarətdir.

Bu mənada Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev ideyalarına sadiq olaraq keçən il Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, habelə Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin rekonstruksiyası və orada xiyabanın yaradılması barədə irəli sürdüyü təşəbbüs hamının ürəyindən olmuşdur.

Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin qonşu Gürcüstan Respublikası və orada yaşayan soydaşlarımızın qayğı və problemləri ilə bağlı siyasi kursu bu gün Azərbaycan prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gürcüstan prezidenti Mixail Saakaşvilinin cari ilin may ayında Bakıda rəsmi səfərdə olarkən Azərbaycan prezidenti İlham Əliyev Gürcüstan dövlətinin başçısı və nümayəndə heyəti ilə görüşündə demişdir: "Ölkələrimiz arasında münasibətlərin tarixi çox qədimdir. Xalqlarımız həmişə yanaşı, qonşuluqda, sülh və mehribanlıq şəraitində yaşamış, həmişə biri-birinə kömək etmişlər. Bu gün iki müstəqil dövlətin inkişafına, əməkdaşlığa və həm təhlükəsizliyimizi, həm də iqtisadi firavanlığımızı təmin edən, qlobal dünya prosesləri üçün böyük əhəmiyyətə malik olan layihələrdə iştirakına kömək edən münasibətlərin təməli budur".

Əminliklə deyə bilərəm ki, həmin o qlobal dünya proseslərinə təsir edən layihələrin, xalqlarımızın təhlükəsizliyinin və iqtisadi firavanlığımızın bünövrəsini dünya şöhrətli siyasətçi Heydər Əliyev qoymuşdur. Müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində günü-gündən güclənən və yeni mərhələyə qədəm qoyan Gürcüstan-Azərbaycan dostluq körpüsündən keçən Bakı-Tbilisi Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri bundan sonra da bu əlaqələrin möhkəmləndirilməsində müstəsna rol oynayacaqdır.

Fikirlərimi ulu öndərin yaxın dostu, böyük ictimai-siyasi xadim Eduard Şevardnadzenin sözləri ilə tamamlamaq istəyirəm: "Bu gün Heydər Əliyevin işini və ölkələrimizin qardaşlıq ənənələrini onun oğlu - böyük ziyalı, gənc dövlət xadimi İlham Əliyev davam etdirir. O, atasının irsinə dəyərli şəkildə başçılıq edir və Azərbaycanda, eləcə də Gürcüstanda böyük inam və nüfuz qazanıb".

● **Aslan ASLANOV,**
***Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini***